# Profilaktik peyvəndləmə tədbirləri davam etdirilir

Rayonumuzda "Epizootiya əleyhinə profilaktika və diaqnostika tədbirlər planı"na uyğun olaraq, xüsusi təhlükəli xəstəliklərə qarşı profilaktik peyvəndləmə, diaqnostik müayinə, dezinfeksiya və digər tədbirlər davam etdirilir.

Rayonda 45511 baş iribuynuzlu, 189919 baş xırdabuynuzlu, 750 baş donuz, 820 baş təkdırnaqlı, 390358 ədəd ev quşu və 9795 arı ailəsi mövcuddur.

Baytarlıq idarəsi tərəfindən 2019-cu ilin yanvar ayından başlayaraq bu günə kimi rayonun ayrı-ayrı təsərrüfatlarında 33498 baş iribuynuzlu, 820 baş təkdırnaqlı heyvanda, 640 baş donuzda qarayara, 2392 baş sahibli itdə quduzluq xəstəliklərinə qarşı peyvəndləmə tədbirləri aparılıb.

Mart ayının ilk günlərindən isə rayon baytarlıq idarəsi tərəfindən sahə baytarlıq məntəqələri arasında iribuynuzlu heyvanların iti yoluxucu nodulyar dermatit və dabaq xəstəliklərinə qarşı aparılacaq vaksinin bölgüsü başa çatdırılıb və peyvəndləmə tədbirinə başlanılıb. Ümumiyyətlə, rayonun təsərrüfatlarında heyvanlar arasında aparılan peyvəndləmə tədbirləri “soyuq zəncir” rejiminə riayət olunmaqla həyata keçirilir. Peyvəndləmə tədbirləri davam etdirilir.

Hazırda xüsusi təhlükəli xəstəliklərə görə rayonda epizootik vəziyyət sabitdir.

**“Qəbələ”**

# Yeni fındıq bağları salınır

Dövlətimizin başçısının fındıqçılığın daha da inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstə-



rişlərin icrasını təmin etmək məqsədilə son illər Qəbələ rayonunda da davamlı iş aparılır. Belə ki, təkcə ötən il rayon ərazisində dövlət, bələdiyyə və xüsusi mülkiyyətə aid torpaq sahələrində 533.4 hektarda yeni fındıq bağları salınıb. Cari ildə fındıq bağlarının sahəsinin daha 234 hektar artırılması nəzərdə tutulur.

Bu barədə müxbirimizə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Elmdar Şərifov məlumat verib.

O, bildirib ki, hazırda rayonda 6 min158 hektar fındıq bağları var. Bu bağların 2 min hektarı son üç ildə salınıb. Ötən il fındıq bağlarından 9 min 278 ton məhsul tədarük olunub. Fındıq istehsalı əvvəlki illə müqayisədə 1500 ton artıb.

**“Qəbələ”**

# Rayonumuzda yazlıq əkin sürət götürür

Yazın gəlişi ilə rayonumuzda yaz-tarla işlərinin qızğın dönəmi başlamışdır.

Mövsüm ərzində fermerlər və fərdi təsərrüfat sahibləri tərəfindən rayonda 75 hektarda tütün, 200 hektarda şəkər çuğunduru, 632 hektarda kartof, 684 hektarda qarğıdalı, 245 hektarda dənli bitkilər, 456 hektarda tərəvəz bitkilərinin əkilməsi proqnozlaşdırılır. İşin gedişi göstərir ki, əkinçilər proqnoza aqrotexniki vaxtda və qaydada əməl edəcəklər.

Artıq kartof əkini başa çatmaq üzrədir. Digər bitkilərin vaxtında əkini üçün sahələr şumlanır, malalanır, lazımi mineral və üzvi kübrələrə olan tələbat yerinə yetirilir.

Mart ayının ortalarından başlayan yağıntıların çoxluğu əkinçilər üçün əlverişsiz şərait yaratsa da onlar yağıntısız keçən hər saatdan maksimum istifadə etməyə çalışırlar.

**“Qəbələ”**

# Epizootik vəziyyət sabitdir

Ölkənin kütləvi informasiya vasitələri dünyanın bir sıra regionlarında, o cümlədən qonşu



İran İslam Respublikasının Şərqi Azərbaycan vilayətində yüksək patogenli “quş qripi” xəstəliyinin qeydə alındığını xəbər verir.

Bununla əlaqədar Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin yaydığı məlumatda bildirilir ki, qonşu ölkə ilə həmsərhəd rayonların baytarlıq idarələrinə ayrı-ayrı şəxsi və quşçuluq təsərrüfatlarında saxlanılan ev və sənaye quşlarından qan və patoloji nümunələrin götürülməsinə dair göstəriş verilib.

Hazırda respublikada “quş qripi” xəstəliyinə görə epizootik vəziyyət sabitdir.

Sabitliyin təmin edilməsi ilə bağlı Dövlət Baytarlıq Xidməti, Qida Təhlükəsizliyi Agentliyi, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri tərəfindən mütəmadi olaraq ölkə ərazisində həm müvəqqəti məskunlaşan köçəri, həm də daimi bəslənən ev və sənaye quşları arasında monitorinqlərin aparıldığı bildirilir.

**“Qəbələ”**

# Payızlıq əkinlərə qulluq göstərilir

Taxılçılarımız tərəfindən rayonda payızlıq əkinlərə ardıcıl olaraq aqrotexniki qulluq göstərilir.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumatda bildirilir ki, bu ilin məhsulu üçün ötən ilin payızında 20 min 190 hektar sahədə taxıl əkini aparılıb. Sahələrdə normal bitiş alınıb.

Qışın mülayim keçməsi əkin sahələrində gəmiricilərə, alaq otlarına və digər ziyanvericilərə qarşı mübarizənin daha intensiv aparılmasına zərurət yaradıb.

Payız və qış dövründə 10 min 200 hektar taxıl zəmilərində gəmiricilərə, 620 hektar sahədə isə alağa qarşı mübarizə tədbirləri aparılıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Ziyanvericilərlə mübarizədə istehsalçılar həm öz, həm də dövlət büdcəsinin vəsaiti hesabına əldə olunan preparatlardan istifadə edirlər.

İndiyədək 8 min 400 hektar sahədə payızlıq əkinə yemləmə



gübrəsi verilib. İndi zəmilərdə alaq otlarına qarşı herbisidlər vurulur, bəzi sahələrə yaşıl mala çəkilir. Bu tədbirlərdə əsasən rayonun Vəndam, Nic qəsəbələrinin, Kürd, Bayramkoxalı, Bunud və Tüntül kəndlərinin fermerləri daha çox fəallıq göstərirlər.

Payızlıq əkinlərə qulluq işlərinin aprelin birinci yarısında yekunlaşdırılması nəzərdə tutulub. Aparılan aqrotexniki tədbirlərdə aqrar inkişaf mərkəzin mütəxəssislər də yaxından iştirak edirlər.

**“Qəbələ”**

# İlk milli sortlar yetişdirilir

Ölkəmizdə ilk dəfə pomidorun yeni sort və hibridlərinin yaradıl-



ması istiqamətində iş aparılır.

Respublika Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun istixanalarında seleksiya toxumçuluq işləri dünyada mövcud olan ən müasir, yeni innovativ üsullarla həyata keçirilir. Hazırda pomidorun 150-dək sort nümunəsi üzərində iş aparılır. Alınan yeni sort və hibridlər əvvəlcə yoxlanılır, keyfiyyəti, məhsuldarlığı, xəstəliyə davamlılığı yüksək olanlar qeydiyyata alınır və toxumları əldə edilir. “Bənövşə”, “Şəlalə” və “Şahin” sortları məhz müasir seleksiya üsulu ilə alınan ilk milli sortlardır və qeydiyyatdan keçirilib. Digər növlərlə müqayisədə məhsuldarlıqları 30-40 faiz çox olan bu yeni pomidor sortlarının yaxın gələcəkdə kütləvi becərilməsinə başlanılacaq.

**Elmdar ŞƏRİFOV,**
**rayon dövlət aqrar inkişaf mərkəzi bitkiçilik sektorunun müdiri.**

# Yazlıq bitkilər əkilib

Kənd təsərrüfatında bitkiçilik məhsullarının əkininə başlanılıb.

Dövlət Statistika Komitəsinin



məlumatında bildirilir ki, mart ayının 1-nə kimi 68,5 min hektar sahədə yazlıq bitkilər, o cümlədən 13,6 min hektar sahədə dənlilər və dənli paxlalılar, 13,8 min hektar sahədə kartof, 10,3 min hektar sahədə tərəvəz, 30,7 min hektar sahədə çoxillik otlar və 0,1 min hektar sahədə digər bitkilər əkilib.

# Məhsul istehsalı artıb

2019-cu ilin yanvar-fevral aylarında diri çəkidə 80,5 min ton ət, 304,9 min ton süd, 283 milyon ədəd yumurta, 27,3 min ton tərəvəz istehsal olunub.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 0,4 faiz, tərəvəz istehsalı isə 1,7 dəfə artıb.

Həmçinin keçən ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulunda 3,6 faiz, o cümlədən heyvandarlıq məhsullarının istehsalında 2,5 faiz, bitkiçilik məhsullarının istehsalında isə 43,7 faiz artım qeydə alınıb.

# Şəhid ailələrinin kreditləri bankların vəsaiti hesabına ödəniləcək

*Azərbaycan Banklar Assosiasiyasının Rəyasət Heyətinin geniş tərkibdə iclası keçirilib.*

*Assosiasiyadan verilən məlumata görə, iclasda yekdilliklə Qarabağ müharibəsi və 20 Yanvar şəhidlərinin bir nəfər ailə üzvünün banklara 360 gündən artıq gecikməsi olan 1000 (min) AZN qədər kreditlərinin (faiz borcu daxil olmaqla) bankların öz vəsaitləri hesabına ödənilməsi barədə qərar qəbul edilib.*

*Bundan sonra da banklara bu istiqamətdə əlavə güzəştlər edilməsi imkanlarının araşdırılması tövsiyə edilib.*